| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 27.02.2001 |
| QEYDİYYAT NÖMRƏSİ | 221-IIQ |
| ADI | Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2001, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 738) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 080.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun *sığortaolunanların* qanunvericilikdə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi uçotunun təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən edir.[1]

I fəsil
**Ümumi müddəalar**

***Maddə 1. Əsas anlayışlar***

*1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:*

*1.1.1. dövlət sosial sığorta sistemində fərdi uçot (bundan sonra – fərdi uçot) – Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq əmək pensiyası və sosial müdafiə sahəsində digər hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunana dair bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulan məlumatların uçotunun təşkili və aparılması;*

*1.1.2. fərdi şəxsi hesab – hər bir sığortaolunana sığortaçı tərəfindən sosial sığorta nömrəsi ilə açılan, fərdi uçot məlumatlarının əks olunduğu hesab;*

*1.1.3. sosial sığorta nömrəsi (SSN) – sığortaçı tərəfindən sığortaolunana verilən daimi (dəyişməz) nömrə.*

*1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Əmək pensiyaları haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş mənaları ifadə edir.*[2]

M a d d ə  2 . **Fərdi uçotun məqsədləri**

2.0. Fərdi uçotun məqsədləri aşağıdakılardır:

2.0.1. dövlət sosial sığortasının həyata keçirilməsi, təkmilləşdirilməsi, əmək pensiyaların məcburi dövlət sosial sığorta haqlarının məbləğindən və sığorta stajından asılı olaraq hesablanması üçün *bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulan məlumatlardan ibarət* informasiya bazasının yaradılması;[3]

2.0.2. əmək pensiyası təminatı və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün staj, məcburi dövlət sosial sığorta haqlarının hesablandığı və ödənildiyi əməkhaqqı və digər gəlirlər və məcburi dövlət sosial sığorta haqqı barədə məlumatların dəqiqliyinin təmin edilməsi;[4]

2.0.3. məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində sığortaolunanların maraqlarının artırılması;

2.0.4. ödənilmiş məcburi dövlət sosial sığorta haqları barədə məlumatların fərdi şəxsi hesablarında əks olunmasına nəzarət etmək üçün sığortaolunanlara şərait yaradılması; [5]

2.0.5. sığortaolunanlara əmək pensiyaların təyin edilməsi qaydalarının sadələşdirilməsi və təyinolunma müddətinin tezləşdirilməsi;

2.0.6. hər bir sığortaedən tərəfindən fərdi uçot üçün hesablanan və ödənilən məcburi dövlət sosial sığorta haqqı məbləği ilə *sığortaçıya* daxil olan məcburi dövlət sosial sığorta haqqı məbləğinin uyğunlaşdırılması. [6]

M a d d ə  3 . **Fərdi uçotun təşkilinin əsas prinsipləri**

3.0. Fərdi uçot aşağıdakı prinsiplər əsasında təşkil edilir:

3.0.1. dövlət sosial sığorta sistemində sığortaolunanlar haqqında məlumatların uçota alınmasının ümumi və məcburi olması;[7]

*3.0.2. hər bir sığortaolunanın özü barəsində sığortaçıda olan fərdi uçot məlumatlarını əldə etməsi;* [8]

3.0.3. sığortaolunanlar barədə məlumatlardan əmək pensiyası təyinatı və qanunvericilikdə nəzərdə tutulan digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün istifadə olunması;

*3.0.4. bu Qanunun 2.0.1-ci maddəsində nəzərdə tutulan informasiya bazasından sığortaçının razılığı olmadan digər məqsədlər üçün istifadənin yolverilməz olması;*[9]

3.0.5. sığortaolunanın *dövlət sosial sığorta sistemində uçota alındığı vaxtdan* fərdi uçotun həyata keçirilməsi.[10]

II fəsil
**Fərdi uçotun təşkili**

***Maddə 4. Fərdi uçotun həyata keçirilməsi qaydası***

*4.1. Fərdi uçot sığortaçı tərəfindən elektron qaydada aparılır.*

*4.2. Fərdi uçot sahəsində elektron xidmətlər (sığortaolunanın və sığortaedənin uçota alınması, sığortaolunana fərdi şəxsi hesabı barədə məlumatların təqdim olunması, sosial sığorta nömrəsinin öyrənilməsi və s.) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.*

*4.3. Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının və işçilərinin, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinin və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərin və şəxslərin fərdi uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada aparılır.*

*4.4. Bu Qanunun 4.1-ci maddəsi əmək pensiyası və digər sosial sığorta ödəmələrinin verilməsi üçün bu Qanunun 5.2.10 – 5.2.12-ci və 5.2.14-cü maddələrində qeyd olunan məlumatların sığortaedən və sığortaolunan tərəfindən yazılı sənəd formasında sığortaçıya təqdim edilməsini istisna etmir.*[11]

M a d d ə 5 . **Sığortaolunanın fərdi şəxsi hesabı**

~~5.1. Dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı hər bir sığortaolunan şəxsə uçot dövründə daimi (dəyişməz) sosial sığorta nömrəsi ilə fərdi şəxsi hesab açır.~~[12]

5.2. Fərdi şəxsi hesaba aşağıdakı məlumatlar daxil edilməlidir:

5.2.1. sosial sığorta *nömrəsi (SSN)*;[13]

5.2.2. adı, atasının adı, soyadı ~~(sığorta olunanın doğulduğu dövrdəki soyadı da göstərilməlidir)~~ ;[14]

5.2.3. doğulduğu il, ay, gün;

5.2.4. doğulduğu yer;

5.2.5. cinsi;

5.2.6. daimi qeydiyyatda olduğu yerin, qaçqın və məcburi köçkünlərin isə məskunlaşdıqları yerin ünvanı;[15]

5.2.7. şəxsiyyəti təsdiq edən sənədin seriyası, nömrəsi, verilmə tarixi və sənədi verən orqanın adı;[16]

*5.2.7-1. fərdi identifikasiya nömrəsi (FİN);*[17]

5.2.8. vətəndaşlığı;

5.2.9. telefon nömrəsi;

5.2.10. əmək pensiyasının təyin edilməsi üçün sosial sığorta stajı, o cümlədən əmək şəraitinə görə güzəştli staj müddəti;[18]

5.2.11. məcburi dövlət sosial sığorta haqlarının hesablandığı və ödənildiyi əməkhaqqı və digər gəlirlər (sığorta stajının hər ayı üçün);[19]

5.2.12. sığortaedən ~~və sığorta olunan~~ tərəfindən ~~fərdi şəxsi hesaba~~ hesablanmış ~~və ödənilmiş~~ məcburi dövlət sosial sığorta haqqının məbləği (sığorta stajının hər ayı üçün);[20]

*5.2.13. sığortaedən tərəfindən sığortaolunana münasibətdə ödənilmiş məcburi dövlət sosial sığorta haqqının məbləği (sığorta stajının hər ayı üçün);*[21]

5.2.14. məcburi dövlət sosial sığorta haqqı ödənilməyən, lakin “*Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsinə* uyğun olaraq, sosial sığorta stajına daxil edilən müddət;[22]

5.2.15. əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) və indeksləşdirilməsi haqqında məlumat.

5.2.16. sığortaolunanın 2006-cı il yanvarın 1-i tarixinə qazanılmış əmək pensiyası hüququna uyğun şərti qaydada hesablanmış pensiya kapitalı haqqında məlumat;

5.2.17. fərdi şəxsi hesabın sığorta hissəsi və onun indeksləşdirilməsi haqqında məlumat;

*5.2.17-1. xüsusi hesabda qeydə alınan vəsait və onun indeksləşdirilməsi haqqında məlumat;*[23]

5.2.18. fərdi şəxsi hesabın yığım hissəsi haqqında məlumat;

5.2.19. *vəfat etdiyi və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildiyi hallarda* sığortaolunanın fərdi şəxsi hesabının bağlanması haqqında məlumat.[24]

*5.2-1. Sığortaolunanın fərdi şəxsi hesabının bağlanması onun fərdi uçot məlumatlarına əsasən sosial sığorta ödəmələrinin, o cümlədən ötən dövr üçün sosial sığorta ödəmələrinin təmin edilməsindən imtina olunması üçün əsas deyil.*[25]

*5.3. Sığortaolunanın fərdi şəxsi hesabında olan məlumatlar dövlət sosial sığorta sistemində uçota alındığı vaxtdan müntəzəm olaraq sığortaçı tərəfindən dəqiqləşdirilməlidir.*

*5.4. Sığortaolunanın fərdi şəxsi hesabı sığortaçı tərəfindən sığortaolunanın bütün ömrü boyunca, ölümündən sonra isə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə uyğun olaraq ailə başçısını itirməyə görə əmək pensiyasının təyin edilməsi üçün saxlanılır və həmin hesabdakı vəsait indeksləşdirilir.*[26]

~~5.5. sığortaolunan öldükdə, müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 5.2.2 - 5.2.7-ci maddələrində olan məlumatları ölüm faktının qeyd olunduğu gündən bir ay ərzində dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına göndərir.~~

5.6. sığortaolunanın fərdi şəxsi hesabında olan məlumatlar *sığortaçı* tərəfindən mərkəzləşdirilmiş qaydada saxlanılır və məlumatların ehtiyat bazası yaradılır.[27]

~~M a d d ə 6 . **Dövlət sosial sığorta şəhadətnaməsi**~~[28]

~~6.1. Dövlət sosial sığorta şəhadətnaməsinin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.~~

~~6.2. Dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 5.2.1 - 5.2.5-ci maddələrinə uyğun olaraq sosial sığorta şəhadətnaməsinin hazırlanmasını və sığortaolunana verilməsini təmin edir.~~

~~6.3. Əmək fəaliyyəti olan sığortaolunanlar dövlət sosial sığorta şəhadətnaməsini öz sığortaedənləri vasitəsilə, özü-özünü sığortaedən şəxslər isə yaşadıqları ərazi (yaşayış yeri üzrə daimi qeydiyyatda olduğu ünvan) üzrə dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanından bir ay müddətində alırlar.~~[29]

~~6.4. Ailə başçısını itirməyə görə əmək pensiyası alan yetkinlik yaşına çatmamış şəxslər istisna olunmaqla, qanunvericiliyə uyğun olaraq müvafiq əmək fəaliyyəti yaşı həddinə çatmayanlar məcburi dövlət sosial sığortasının subyekti ola bilməzlər.~~

~~6.5. sığortaolunanların bu Qanunun 5.2.2 - 5.2.5-ci maddələrində göstərilmiş məlumatlarında dəyişiklik olduqda, həmin dəyişikliklər bu Qanunun 7-ci maddəsi ilə müəyyən olunan qaydalar üzrə onun fərdi şəxsi hesabında öz əksini tapmalıdır. Bu halda dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı sığortaolunana həmin sosial sığorta nömrəsi ilə yeni dövlət sosial sığorta şəhadətnaməsini (əvvəlcə verilənin əvəzinə) verir.~~

~~6.6. Dövlət sosial sığorta şəhadətnaməsi itirildiyi halda:~~

~~6.6.1. əmək fəaliyyəti olan sığortaolunan, dövlət sosial sığorta şəhadətnaməsini itirdikdə, dövlət sosial sığorta şəhadətnaməsinin dublikatının verilməsinə dair ərizə ilə sığortaedənə, sığortaedən isə öz növbəsində qeydiyyatda olduğu fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində müraciət etməlidir;~~

~~6.6.2. əmək fəaliyyəti olmayan sığortaolunanlar, eləcə də özü-özünü sığortaedən şəxslər dövlət sosial sığorta şəhadətnaməsini itirdikdə dövlət sosial sığorta şəhadətnaməsinin dublikatının verilməsinə dair ərizə ilə ilk dəfə fərdi uçot sistemində qeydiyyata durduğu fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində şəxsən müraciət etməlidirlər;~~

~~6.6.3. dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət sosial sığorta şəhadətnaməsinin dublikatı müraciət olunduğu gündən bir ay müddətində əmək fəaliyyəti olan sığortaolunana onun sığortaedəni vasitəsilə, əmək fəaliyyəti olmayan sığortaolunana, eləcə də özüzünü sığortaedən şəxslərə isə şəxsən verilir. Bu zaman dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı sığortaolunandan bu Qanunun 5.2.2—5.2.8-ci maddələrində göstərilən məlumatları dəqiqləşdirmək üçün şəxsiyyəti təsdiq edən sənədi tələb etmək hüququna malikdir.~~ ~~[30]~~

~~6.7. Dövlət sosial sığorta şəhadətnaməsinin dublikatının alınması barədə sığortaolunanın ərizəsinin forması və təqdim olunma qaydası dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~ ~~[31]~~

***Maddə 7. Sığortaolunanlara dair məlumatların təqdim olunması və qeydə alınması***

*7.1. Sığortaçı bu Qanunun 5.2.2 – 5.2.19-cu maddələrində nəzərdə tutulan məlumatları sığortaolunanın fərdi şəxsi hesabında aşağıdakı qaydada qeydə alır:*

*7.1.1. bu Qanunun 5.2.2 – 5.2.9-cu maddələrində nəzərdə tutulan məlumatları və həmin məlumatlarda dəyişiklikləri bu Qanunun 4.3-cü maddəsi nəzərə alınmaqla "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-cü maddəsində nəzərdə tutulmuş qaydada;*

*7.1.2. bu Qanunun 5.2.10-cu maddəsində nəzərdə tutulmuş sosial sığorta stajı ilə bağlı məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemindən, əmək şəraitinə görə güzəştli staj müddəti ilə bağlı məlumatları isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemindən əldə edilmiş məlumatlar əsasında;*

*7.1.3. bu Qanunun 5.2.11-ci, 5.2.12-ci və 5.2.13-cü maddələrində nəzərdə tutulmuş məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminin məlumatları əsasında;*

*7.1.4. bu Qanunun 5.2.14-cü maddəsində nəzərdə tutulmuş məlumatları sığortaolunana əmək pensiyası təyin edilərkən "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsində nəzərdə tutulmuş qaydada həmin müddətləri təsdiq edən sənədlər əsasında;*

*7.1.5. bu Qanunun 5.2.15 – 5.2.18-ci maddələrində nəzərdə tutulmuş məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemindən əldə edilən məlumatlar əsasında;*

*7.1.6. bu Qanunun 5.2.19-cu maddəsində nəzərdə tutulmuş məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemindən əldə edilmiş məlumatlar əsasında.*[32]

## I I I f ə s i l

## Sığortaolunanın, sığortaedənin və *sığortaçının* hüquq və vəzifələri[33]

***Maddə 8. Sığortaolunanın hüquq və vəzifələri***

*8.1. Sığortaolunan aşağıdakı hüquqlara malikdir:*

*8.1.1. fərdi şəxsi hesabında qeydə alınan məlumatlarla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə tanış olmaq və ya sığortaçıdan həmin məlumatları almaq;*

*8.1.2. özü haqqında fərdi uçot məqsədləri üçün sığortaedənin sığortaçıya təqdim etdiyi məlumatları sığortaçıdan, bu Qanunun 5.2.11-ci və 5.2.12-ci maddələrinə münasibətdə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) və ya sığortaedəndən almaq;*

*8.1.3. fərdi şəxsi hesabında əks olunan məlumatlarla razı olmadıqda, həmin məlumatların dəqiqləşdirilməsi barədə sığortaçıya, bu Qanunun 5.2.11-ci və 5.2.12-ci maddələrində nəzərdə tutulmuş məlumatlara münasibətdə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya sığortaedənə müraciət etmək;*

*8.1.4. fərdi şəxsi hesabında əks olunan məlumatlar bu Qanunla müəyyən olunmuş hallarda dəyişdikdə, bu barədə sığortaçıya və ya sığortaedənə yazılı məlumat vermək.*

*8.2. Sığortaolunanın aşağıdakı vəzifələri vardır:*

*8.2.1. sığortaedənə bu Qanunun 5.2.2 – 5.2.9-cu maddələrində nəzərdə tutulan məlumatları təqdim etmək;*

*8.2.2. bu Qanuna əsasən fərdi şəxsi hesabına daxil edilməli olan fərdi məlumatları sığortaçıya təqdim etmək.*

***Maddə 9. Sığortaedənin hüquq və vəzifələri***

*9.1. Sığortaedən aşağıdakı hüquqlara malikdir:*

*9.1.1. sığortaolunandan bu Qanunun 5.2.2 – 5.2.9-cu maddələrində nəzərdə tutulan məlumatların təqdim edilməsini tələb etmək, sığortaolunanın təqdim etdiyi məlumatları dəqiqləşdirmək;*

*9.1.2. sığortaolunanlara dair təqdim edilmiş fərdi uçot məlumatlarında aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dürüstləşmiş məlumatları elektron, habelə yazılı formada təqdim etmək.*

*9.2. Sığortaedənin aşağıdakı vəzifələri vardır:*

*9.2.1. sığortaolunanların fərdi şəxsi hesabına daxil edilməli olan məlumatları sığortaçıya, bu Qanunun 5.2.11-ci və 5.2.12-ci maddələrində nəzərdə tutulmuş məlumatları isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) bu Qanuna və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən tam və düzgün təqdim etmək;*

*9.2.2. sığortaolunan haqqında bu Qanunun 5.2.2 – 5.2.9-cu maddələrində nəzərdə tutulan məlumatları aşağıdakı müddətdə sığortaçıya təqdim etmək:*

*1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində nəzərdə tutulan şəxslərə dair məlumatlar əmək müqaviləsi kağız üzərində yazılı formada bağlanıldığı gündən bir ay müddətində, digər sığortaolunanlar barədə məlumatlar isə sığortaolunanın əmək müqaviləsi bildirişinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemində qeydiyyata alınması zamanı;*

*2. sığortaçıda uçotda olmayan şəxslə mülki hüquqi müqavilə bağlanıldıqdan sonra bir ay müddətində;*

*3. sığortaolunan haqqında məlumatlar dəyişildikdə 14 gün müddətində.* [34]

-

M a d d ə 1 0 . ***Sığortaçının* hüquq və vəzifələri**[35]

10.1. *Sığortaçı* aşağıdakı hüquqlara malikdir:

10.1.1. Sığortaedəndən və sığortaolunandan bu Qanunla müəyyən edilmiş məlumatların vaxtında və dürüst təqdim edilməsini tələb etmək;

10.1.2. Sığortaedənin~~, eləcə də fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxsin~~ fərdi uçot barədə təqdim etdikləri məlumatların dürüstlüyünü yoxlamaq;[36]

10.1.3. Sığortaedənin fərdi uçot qaydalarını pozan təqsirkar vəzifəli şəxslərinə ilk dəfə yazılı xəbərdarlıq etmək, növbəti qanun pozuntuları hallarında isə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət tədbirləri tətbiq etmək.

10.2. *Sığortaçın* vəzifələri aşağıdakılardır:

10.2.1. Sığortaedən və sığortaolunan tərəfindən təqdim olunan məlumatların fərdi şəxsi hesablara vaxtında və dürüst daxil edilməsini, onların etibarlı saxlanmasını və mühafizəsini təmin etmək;

*10.2.1-1. Sığortaedən tərəfindən təqdim edilmiş siyahıya uyğun olaraq ödənilmiş məcburi dövlət sosial sığorta haqqını sığortaolunanlar üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqına münasibətdə proporsional bölüşdürərək fərdi şəxsi hesablarda qeydə almaq;*[37]

10.2.2. sığortaolunana onun müraciətinə əsasən fərdi şəxsi hesabındakı məlumatların təqdim edilməsi qaydalarını izah etmək*, habelə fərdi şəxsi hesabındakı məlumatlara baxış imkanının yaradılmasını təmin etmək*;[38]

~~10.2.3. pensiya təyin edən orqana, onun sifarişinə əsasən, pensiya təyin olunması barədə ərizə vermiş sığorta olunanın fərdi şəxsi hesabındakı məlumatları təqdim etmək;~~[39]

10.2.4. bu Qanunun tətbiqi ilə əlaqədar izahatlar vermək və səlahiyyətləri daxilində müvafiq normativ aktlar qəbul etmək.

## I V f ə s i l
## Yekun müddəalar

M a d d ə 1 1 . **Fərdi uçot məsələləri üzrə mübahisələrin həll edilməsi qaydası**

Dövlət sosial sığorta sistemində fərdi uçot məsələləri üzrə yaranan mübahisələr Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində nəzərdə tutulmuş qaydada həll olunur.

M a d d ə 1 2 . **Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun normalarının pozulmasına görə təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 27 fevral 2001-ci il
221-IIQ

-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 15 aprel 2005-ci il tarixli 890-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 466**)
2. 6 mart 2007-ci il tarixli 260-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 401**)

3. 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**)
4. 1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 49**)
5. 24 aprel 2018-ci il tarixli **1079-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 may 2018-ci il, 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 866**)
6. 1 fevral 2019-cu il tarixli **1481-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 379**)
7. 23 aprel 2021-ci il tarixli **297-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, 125 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 538**)
8. 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə mətn üzrə ismin müvafiq hallarında "işəgötürən" sözü ismin müvafiq hallarında "sığortaedən" sözü ilə, "pensiya" sözü "əmək pensiyası" sözləri ilə, "sığorta olunan" sözləri "sığortaolunan" sözü ilə əvəz edilmişdir.

8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834** ) ilə preambulada "**Azərbaycan Respublikası vətəndaşlarının**" sözləri "**sığortaolunanların**" sözü ilə əvəz edilmişdir.

[2] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 1-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 1 . **Fərdi uçot anlayışı**~~

~~Fərdi uçot - Azərbaycan Respublikası qanunvericiliyinə uyğun əmək pensiyası və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasıdır.~~

[3] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 2.0.1-ci maddəyə "**üçün**" sözündən sonra "**bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulan məlumatlardan ibarət**" sözləri əlavə edilmişdir.

[4] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 2.0.2-ci maddədə "əməkhaqqı (gəlir)" sözləri "məcburi dövlət sosial sığorta haqlarının hesablandığı və ödənildiyi əməkhaqqı və digər gəlirlər" sözləri ilə əvəz edilmişdir.

[5] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 2.0.4-cü maddədə "hesablarına köçürülməsinə" sözləri "hesablarında əks olunmasına" sözləri ilə əvəz edilmişdir.

[6] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 2.0.6-cı maddədə "köçürülən" sözü "ödənilən" sözü ilə əvəz edilmişdir.

8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834** ) ilə 2.0.6-cı maddədə "**fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına** " sözləri "**sığortaçıya**" sözü ilə əvəz edilmişdir.

[7] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 3.0.1-ci maddədə "təminat" sözü "sığorta" sözü ilə əvəz edilmişdir.

[8] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 3.0.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~3.0.2. hər bir sığortaolunanın fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanında özü barəsində olan məlumatları əldə etməsi;~~

[9] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 3.0.4-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~33.0.4. fərdi uçotun informasiya bazasından bu uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanının razılığı olmadan digər məqsədlər üçün istifadəsinin yolverilməz olması;~~

[10] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti, 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 3.0.5-ci maddədə "**bütün əmək fəaliyyəti dövründə**" sözləri "**dövlət sosial sığorta sistemində uçota alındığı vaxtdan** " sözləri ilə əvəz edilmişdir.

[11] 1 fevral 2019-cu il tarixli **1481-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 379**) ilə 4-cü maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Dövlət sosial sığorta sistemində fərdi uçotu məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı aparır.~~

8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 4-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 4 . **Fərdi uçotu həyata keçirən orqan**~~

~~*4.1. Dövlət sosial sığorta sistemində fərdi uçotu məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı aparır.*~~

~~*4.2. Dövlət sosial sığorta sistemində fərdi uçot sahəsində elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.*~~

[12] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 5.1-ci və 5.5-ci maddələr ləğv edilmişdir.

[13] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 5.2.1-ci maddədə "**nömrəsi**" sözü "**nömrəsi (SSN)**" sözləri ilə əvəz edilmişdir.

[14] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 5.2.2-ci maddədən "(sığorta olunanın doğulduğu dövrdəki soyadı da göstərilməlidir)" sözləri çıxarılmışdır.

[15] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 5.2.6-cı maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~daimi yaşadığı yerin ünvanı;~~

[16] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 5.2.7-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsi;~~

[17] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə yeni məzmunda 5.2.7-1-ci maddə əlavə edilmişdir.

[18] 6 mart 2007-ci il tarixli **260-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 401**) ilə 5.2.10-cu maddədə "**dövlət**" sözü çıxarılsın və "**ümumi iş stajı dövrü**" sözləri "**sosial sığorta stajı**" sözləri ilə əvəz edilmişdir.

[19] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 5.2.11-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanında məcburi dövlət sosial sığorta haqlarının hesablandığı və ödənildiyi əmək haqqı və ya gəlir (sığorta stajının hər ayı üçün);~~

[20] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 5.2.12-ci maddədən "**fərdi şəxsi hesaba**" və "**və ödənilmiş**" sözləri çıxarılmışdır.

[21] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 5.2.12-ci maddədə "və sığorta olunan" sözləri çıxarılmışdır, "köçürülmüş" sözü "ödənilmiş" sözü ilə əvəz edilmişdir.

8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 5.2.13-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.2.13. *işsizlikdən sığorta ödənişi* ödənildiyi müddətlər;~~

24 aprel 2018-ci il tarixli **1079-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 may 2018-ci il, 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 866**) ilə 5.2.13-cü maddəsində "**işsizliyə görə müavinət**" sözləri "**işsizlikdən sığorta ödənişi**" sözləri ilə əvəz edilmişdir.

[22] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 5.2.14-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~məcburi dövlət sosial sığorta haqları hesablanmayan, lakin ümumi əmək stajına daxil edilən hərbi xidmət, təhsil və qanunvericilikdə nəzərdə tutulan digər müddətlər;~~

8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı,**

**19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il,  177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834 )** ilə 5.2.14-cü maddədə "**müvafiq qanunvericiliyə**" sözləri "**Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsinə** " sözləri ilə əvəz edilmişdir.

[23] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il,  177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə yeni məzmunda 5.2.17-1-ci maddə əlavə edilmişdir.

[24] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,  11, maddə 1071**) ilə yeni məzmunda 5.2.16-5.2.19-cu maddələr əlavə edilmişdir.
8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il,  177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834 )** ilə 5.2.19-cu maddəyə "**sığortaolunanın**" sözündən əvvəl "**vəfat etdiyi və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildiyi hallarda**" sözləri əlavə edilmişdir.

[25] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il,  177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə yeni məzmunda 5.2-1-ci maddə əlavə edilmişdir.

[26] 23 aprel 2021-ci il tarixli **297-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il,  125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il,  6, I kitab, maddə 538**) ilə 5.3-cü maddədə "**müntəzəm olaraq**" sözlərindən sonra "**dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən**" sözləri əlavə edilmişdir.
8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il,  177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834 )** ilə 5.3-cü və 5.4-cü maddələr yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~5.3. sığortaolunanın fərdi şəxsi hesabında olan məlumatlar onun əmək fəaliyyəti müddətində müntəzəm olaraq *dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən* dəqiqləşdirilməlidir.~~
~~5.4. sığortaolunanın fərdi şəxsi hesabı dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən sığortaolunanın bütün ömrü boyunca, ölümündən sonra isə əmək pensiyası işlərinin saxlanılması qaydasında nəzərdə tutulmuş müddət ərzində mühafizə olunub saxlanılır.~~

[27] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il,  177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 5.6-cı maddədə "**dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı** " sözləri "**sığortaçı**" sözü ilə əvəz edilmişdir.

[28] 23 aprel 2021-ci il tarixli **297-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il,  125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il,  6, I kitab, maddə 538**) ilə 6-cı, 7.6.3-cü, 7.7.4-cü, 8.2.3-cü, 9.1.1-ci və 9.2.3-cü maddələr ləğv edilmişdir.

[29] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,  11, maddə 1071**) ilə 6.3-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~sığortaolunan (o cümlədən fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxs) dövlət sosial sığorta şəhadətnaməsini fəaliyyət göstərdiyi ərazi üzrə fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarından alır.~~

[30] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,  11, maddə 1071**) ilə 6.6-cı maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~6.6. Dövlət sosial şəhadətnaməsi itirildiyi halda:~~
~~6.6.1. sığortaolunan (o cümlədən fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxs) dövlət sosial sığorta şəhadətnaməsi itirildiyi gündən bir ay müddətində onun bərpası barədə ərizə ilə, fəaliyyət göstərdiyi ərazi üzrə fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir;~~
~~6.6.2. dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən sığortaolunana dövlət sosial sığorta şəhadətnaməsinin itirilməsi barədə ərizəsinə əsasən, müraciət olunduğu gündən bir ay müddətində onun adına açılmış fərdi şəxsi hesabın nömrəsilə həmin sosial sığorta şəhadətnaməsinin dublikatı şəxsən verilir. Bu məsələnin həlli üçün dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı sığortaolunandan bu Qanunun 5.2-ci maddəsində göstərilən məlumatları əlavə tələb etmək hüququna malikdir.~~

[31] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,  11, maddə 1071**) ilə 6.7-ci maddədə "Yeni dövlət sosial sığorta şəhadətnaməsinin (itirilmişin əvəzinə)" sözləri "Dövlət sosial sığorta şəhadətnaməsinin dublikatının" sözləri ilə əvəz edilmişdir.

[32] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,  11, maddə 1071**) ilə 7-ci maddənin adı yeni redaksiyada verilmişdir.
1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il,  29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il,  2, maddə 49**) ilə 7.1-ci maddədən "**qeydiyyatdan keçdikləri**" sözləri çıxarılmışdır.
19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,  11, maddə 1071**) ilə 7.2-ci maddədə **"Fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan"** sözləri **"Öz-özünü sığortaedən"** sözləri ilə əvəz edilmişdir.
1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il,  29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il,  2, maddə 49**) ilə 7.2-ci maddədən "**şəxsən**" sözü çıxarılmışdır.

1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 49**) ilə 7.2-ci maddədən "**qeydiyyatdan keçdiyi**" sözləri çıxarılmışdır.

15 aprel 2005-ci il tarixli 890-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 466**) ilə 7.4-cü maddənin ikinci cümləsindən "**rəqəmlə ifadə olunmuş**" sözləri çıxarılmışdır.

19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 7.4-cü maddənin birinci cümləsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Göstərilən məlumatlar həm yazılı sənəd formasında, həm də məlumatın düzgünlüyünə, eləcə də icazə olmadan əldə edilməkdən və təhrif olunmaqdan mühafizəsinə zəmanət olunduğu halda elektron formada (maqnit daşıyıcılarında və rabitə kanalları ilə) təqdim edilə bilər.~~

19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 7.5-ci maddənin birinci cümləsində "və fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxsdə" sözləri çıxarılmışdır.

19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə yeni məzmunda 7.6 —7.13-cü maddələr əlavə edilmişdir.

<u>23 aprel 2021-ci il tarixli **297-VIQD** nömrəli</u> Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, 125 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 538**) ilə 7.6.2-ci və 7.7.3-cü maddələrdə "**dövlət sosial sığorta şəhadətnaməsi olmayan**" sözləri "**fərdi uçota alınmamış**" sözləri ilə əvəz edilmişdir.

1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 49**) ilə 7.7.1-ci maddədə **"qeydiyyatdan keçdikləri"** sözləri çıxarılmışdır.

1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 49**) ilə 7.7.3-ci maddədə **"qeydiyyatdan keçdiyi"** sözləri çıxarılmışdır.

1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 49**) ilə 7.7.5-ci maddədə **"qeydiyyatdan keçdiyi"** sözləri çıxarılmışdır.

1 fevral 2008-ci il tarixli 543-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 49**) ilə 7.8.-ci maddədə **"qeydiyyatdan keçdikləri"** sözləri çıxarılmışdır.

<u>8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli</u> Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı , 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834 )** ilə 7-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 7 . **Sığortaolunanlar haqqında məlumatların təqdim olunması**~~

~~7.1. Sığortaedən, məcburi dövlət sosial sığorta haqqını ödədiyi bütün işçiləri haqqında məlumatları dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim edir.~~

~~7.2. Öz-özünü sığortaedən şəxs özü haqqında məlumatları dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim edir.~~

~~7.3. Bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş məlumatlar dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına, onun tərəfindən təsdiqlənmiş sənəd formalarına və təlimatlara müvafiq surətdə təqdim olunur.~~

~~7.4. Göstərilən məlumatlar həm yazılı sənəd formasında, həm də məlumatın düzgünlüyünə, eləcə də icazə olmadan əldə edilməkdən və təhrif olunmaqdan mühafizəsinə zəmanət olunduğu halda elektron formada (maqnit daşıyıcılarında) təqdim edilməlidir. Eyni zamanda, bu məlumatlar rabitə kanalları vasitəsilə də təqdim edilə bilər. Bu halda təqdim olunan sənədlərin hüquqi qüvvəsi Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə elektron imza ilə təsdiq olunmalıdır. İnformasiyanın elektron formada təqdim olunmasının mümkünlüyü məsələsi dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı və hər bir sosial sığorta ödəyicisi ilə birgə həll olunur.~~

~~7.5. Dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim olunan məlumatların surətləri sığortaedəndə və fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxsdə saxlanılır. Bu sənədlərin sığortaedəndə saxlanılması mühasibat uçotu və hesabatı sənədlərinin saxlanılması üçün müəyyən edilmiş qaydalar üzrə həyata keçirilir.~~

~~7.6. Sığortaedən sığortaolunanlar haqqında bu Qanunun 5.2.1—5.2.9-cu maddələrində göstərilən məlumatları aşağıdakı hallarda dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim edir:~~

~~7.6.1. sığortaolunan ilk dəfə əmək fəaliyyətinə başladıqda;~~

~~7.6.2. *fərdi uçota alınmamış* şəxslə mülki-hüquqi xarakterli müqavilə bağlandıqda;~~

~~7.6.3. sığortaolunan tərəfindən dövlət sosial sığorta şəhadətnaməsi itirildikdə;~~

~~7.6.4. sığortaolunan haqqında məlumatlar dəyişildikdə.~~

~~7.7. Sığortaolunanlar haqqında bu Qanunun 5.2.1—5.2.9-cu maddələrində göstərilən məlumatlar aşağıdakı qaydada təqdim edilir:~~

~~7.7.1. ilk dəfə əmək fəaliyyətinə başlayan sığortaolunan barədə məlumatlar bir ay müddətində sığortaedən tərəfindən dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına;~~

~~7.7.2. özü-özünü sığorta edən şəxs tərəfindən özü haqqında məlumatlar bir ay müddətində daimi qeydiyyatda olduğu yerin, qaçqın və məcburi köçkünlər isə məskunlaşdıqları yerin ünvanı üzrə dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına;~~

~~7.7.3. *fərdi uçota alınmamış* şəxslərlə mülki-hüquqi xarakterli müqavilə bağlandıqda, bu şəxslər barədə məlumatlar bir ay müddətində sığortaedən tərəfindən dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına;~~

~~7.7.4. sığortaolunan tərəfindən dövlət sosial sığorta şəhadətnaməsi itirildikdə, bu Qanunun 6.6-cı maddəsində müəyyən olunmuş qaydada;~~

~~7.7.5. sığortaolunan barədə məlumatlar dəyişildikdə, dürüstləşmiş məlumatlar sığortaedən tərəfindən 14 iş günü müddətində dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına.~~

~~7.8. Sığortaedən sığortaolunanlar üzrə məcburi dövlət sosial sığorta haqlarının hesablandığı və ödənildiyi əməkhaqqı və digər gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqlarına dair məlumatları mühasibat uçotu sənədlərinə uyğun olaraq tərtib etməklə, dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim edir.~~

~~7.9. Sığortaedən dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş müddətdə hər bir sığortaolunanına dair aşağıdakı məlumatları təqdim edir:~~

~~7.9.1. sığortaolunanın sosial sığorta nömrəsi;~~

~~7.9.2. sığortaolunanın adı, soyadı və atasının adı;~~

~~7.9.3. hər bir sığortaolunan üzrə məcburi dövlət sosial sığorta haqlarının hesablandığı və ödənildiyi əməkhaqqı və digər gəlirlər (məlumat təqdim olunan dövrün hər ayı üzrə);~~

~~7.9.4. hər bir sığortaolunan üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqqı (məlumat təqdim olunan dövrün hər ayı üzrə).~~

~~7.10. Bu Qanunun 7.9-cu maddəsində nəzərdə tutulmuş məlumatlarla bərabər əmək şəraitinə görə güzəştli staj müddətinə malik sığortaolunanları olan sığortaedənlər həmin sığortaolunanların siyahısını dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim edir.~~

~~7.11. Sığortaedən ləğv olunduğu və ya fəaliyyətini dayandırdığı halda, sonuncu məlumat təqdim edildiyi dövrdən ləğv olunduğu və ya fəaliyyətini dayandırdığı günədək olan dövr üçün hər bir sığortaolunana dair bu Qanunun 7.9-cu və 7.10-cu maddələrində nəzərdə tutulmuş məlumatları dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim edir.~~

~~7.12. Əmək pensiyası təyin edilərkən, sığortaolunan sığortaedənə onun barəsində dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına fərdi məlumatların təqdim edilməsi haqqında ərizə ilə müraciət edir. Sığortaedən sonuncu məlumatı təqdim etdiyi~~

~~dövrdən sığortaolunanın pensiya təyinatı üçün rəsmi müraciət etdiyi günədək olan dövr üçün həmin sığortaolunan haqqında təqdim olunmamış bu Qanunun 7.9-cu və 7.10-cu maddələrində nəzərdə tutulmuş məlumatları 10 iş günü müddətində dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim edir.~~

~~7.13. Sığortaolunan işdən azad edildikdə, sonuncu məlumat təqdim olunan dövrdən sığortaolunanın işdən azad edildiyi günədək olan dövr üçün bu Qanunun 7.9-cu və 7.10-cu maddələrində nəzərdə tutulmuş məlumatlar sığortaedən tərəfindən dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına ümumi qaydada, sığortaolunana isə həmin gün təqdim edir.~~

[33] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə III fəslin adında "**dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanının** " sözləri "**sığortaçının**" sözü ilə əvəz edilmişdir.

[34] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 8.1.3-cü maddədə "hesabına yazılan" sözləri "hesabında əks olunan" sözləri ilə əvəz edilmişdir.

19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 8.1.1-ci və 8.1.4-cü maddələrdə "yazılan" sözü "əks olunan" sözləri ilə əvəz edilmişdir.

1 fevral 2008-ci il tarixli Qanun (**"Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, 29**) ilə 8.2.1-ci maddədə "**qeydiyyatdan keçmək**" sözləri "**uçota düşmək**" sözləri ilə əvəz edilmişdir.

8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834** ) ilə 8-ci və 9-cu maddələr yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 8 . **Sığortaolunanın hüquq və vəzifələri**~~

~~8.1. Sığortaolunan aşağıdakı hüquqlara malikdir:~~

~~8.1.1. yaşayış və ya iş yeri üzrə dövlət sosial sığortası sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanında fərdi şəxsi hesabında əks olunan məlumatları almaq;~~

~~8.1.2. dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına onun özü haqqında fərdi uçot üçün sığortaedənin təqdim etdiyi məlumatların surətini sığortaedəndən almaq;~~

~~8.1.3. fərdi şəxsi hesabında əks olunan məlumatlarla razı olmadığı hallarda həmin məlumatların dəqiqləşdirilməsi barədə dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya sığortaedənə ərizə ilə müraciət etmək;~~

~~8.1.4. bu Qanunla müəyyən olunmuş qaydada fərdi şəxsi hesabında əks olunan məlumatlar dəyişdikdə, ərizə ilə dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya sığortaedənə müraciət etmək.~~

~~8.2. sığortaolunanın aşağıdakı vəzifələri vardır:~~

~~8.2.1. dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanında uçota düşmək;~~

~~8.2.2. dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanının tələbi ilə bu Qanuna əsasən onun fərdi şəxsi hesabına daxil edilməli olan məlumatları təqdim etmək;~~

~~8.2.3. dövlət sosial sığorta şəhadətnaməsini almaq, onu saxlamaq və sığortaedənin, fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxslərinin tələbinə görə təqdim etmək.~~

-

~~M a d d ə 9 . **Sığortaedənin hüquq və vəzifələri**~~

~~9.1. Sığortaedən aşağıdakı hüquqlara malikdir:~~

~~9.1.1. sığortaolunanı işə qəbul edərkən ondan dövlət sosial sığorta şəhadətnaməsini (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olunmaqla) tələb etmək;~~

~~9.1.2. sığortaolunanlar haqqında verilmiş məlumatları dəqiqləşdirmək, onlara əlavələr etmək və bu barədə dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına məlumat vermək.~~

~~9.2. Sığortaedənin vəzifələri aşağıdakılardır:~~

~~9.2.1. dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına sığortaolunanlar haqqında bu Qanunla müəyyən olunan məlumatları dürüst və müəyyən olunmuş müddətdə təqdim etmək;~~

~~9.2.2. hər bir sığortaolunan haqqında təqdim olunmuş məlumatları dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanına vermək;~~

~~9.2.3. sığortaolunanın dövlət sosial sığorta şəhadətnaməsində qeyd edilən məlumatların onun şəxsiyyətini təsdiq edən sənədlə uyğun gəlməsini yoxlamaq.~~

[35] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə 10-cu maddənin adında, 10.1-ci və 10.2-ci maddələrdə ismin müvafiq hallarında "**Dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı**" sözləri ismin müvafiq hallarında "**Sığortaçı**" sözü ilə əvəz edilmişdir.

[36] 19 oktyabr 2007-ci il tarixli 453-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1071**) ilə 10.1.2-ci maddədə ", eləcə də fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxsin" sözləri çıxarılmışdır.

[37] 8 iyul 2022-ci il tarixli **587-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 19 avqust 2022-ci il "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 834**) ilə yeni aşağıdakı məzmunda 10.2.1-1-ci maddə əlavə edilmişdir.

[38] 23 aprel 2021-ci il tarixli **297-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 538**) ilə 10.2.2-ci maddəyə "**izah etmək**" sözlərindən sonra "**, habelə fərdi şəxsi hesabındakı məlumatlara baxış imkanının yaradılmasını təmin etmək**" sözləri əlavə edilmişdir.

[39] 6 mart 2007-ci il tarixli **260-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 401**) ilə **10.2.3**-cü maddə çıxarılmışdır.